# Makron Azərbaycana təzyiq göstərməyin mümkünsüzlüyünü dərk edə bilmir

Fransanın Azərbaycana qarşı qərəzli davranışları və düşmənçilik siyasəti bir an belə səngimir. Bu gün Bakı ilə Paris arasındakı münasibətlərdə müşahidə olunan gərginliyin əsas səbəbi Makron hakimiyyətinin riyakar və ədalətsiz mövqeyidir. Rəsmi Paris uzun müddətdir ki, ermənilərə hər cür hərbi və diplomatik, eləcə də iqtisadi dəstək verməklə Azərbaycanla Ermənistan arasında sülhün əldə olunmasına əngəl törətməyə çalışır. Lakin bu situasiyada uduzan tərəf ölkəmizə qarşı hücumlarını dayandırmayan Fransanın özüdür. Təsadüfi deyil ki, bu ölkənin beynəlxalq imici və ona olan etimad az qala sıfra bərabərdir.



Bu mövzu ilə bağlı "Azərbaycan" qəzetinə danışan Milli Məclisin deputatı Fazil Mustafa deyib ki, Azərbaycan-Fransa münasibətlərindəki mövcud vəziyyət son 30 ildə ən aşağı səviyyədədir: "Bunun əsas səbəbkarı Fransa Prezidenti olsa da, təkcə Makron hökumətinin deyil, elə Fransanın yanında dayanan bütün qüvvələrin Azərbaycana qarşı qərəzli münasibətlərinin olması da var. Həmin qüvvələr Azərbaycanın müstəqil siyasət yürütməsi, öz haqlarının müdafiəsinə qalxması və torpaqlarını düşmən işğalından azad etməsi ilə barışmırlar. Onlar Azərbaycana siyasi təzyiqlər etməyə çalışsalar da, buna nail ola bilmirlər və bilməyəcəklər də. Bütün dünya şahidi olub ki, Azərbaycan tarixi gerçəklikləri dəyişməyə qadir böyük gücə sahibdir".

Deputat bildirib ki, bu gün Fransanın rəhbəri Makron olmur, kim olursa-olsun, Azərbaycana təzyiq göstərməyin mümkünsüzlüyünü anlamalıdırlar: "Onlar boş çabalardan əl çəkməlidirlər. Fransanın daxili problemlərini, siyasi-iqtisadi çətinliklərini həll etmək ölkə adına daha faydalı olar. Azərbaycan artıq güclü dövlətdir və istənilən çətinlikdən çıxış yolunu özü tapır və qətiyyətli mövqeyi ilə istədiyini diktə edə bilir. Yəni Azərbaycanın daxili işlərinə müdaxilə etmək, regionda möhkəmlənmək üçün ucuz vasitələrdən istifadə etmək cəhdləri fayda verməz. Azərbaycan həm də sülh tərəfdarıdır, amma onunla təhdid dili ilə danışanlara da layiqli cavablarını verəcək gücə malikdir".

Fazil Mustafanın sözlərinə görə, Fransa həm Vətən müharibəsində, həm ötən ilin aprelində Laçın sərhəd-buraxılış məntəqəsinin təsis edilməsi zamanı Azərbaycana qarşı başlatdığı beynəlxalq qarayaxma kampaniyasında, eləcə də antiterror tədbirlərindən sonra aqressiv hücumlar fonunda Azərbaycana uduzub: "Ötən ilin dekabrında isə bu ölkənin casus şəbəkəsi ifşa edilib. Bununla da Fransanın təkcə Cənubi Qafqazda deyil, bütövlükdə Şərqi Avropada və Orta Asiyadakı mövqelərinə ciddi zərbə vurulub. Görünən odur ki, bütün bunlara rəğmən hücumlarını hələ də dayandırmayan Paris görünür ki, məğlubiyyətlərlə doymayıb".

Deputat sonda qeyd edib ki, Fransanın xüsusilə Vətən müharibəsindən sonra Azərbaycana ardıcıl hücumları heç bir nəticə verməyib: "Bu, bir daha onu sübut edir ki, Azərbaycanın Cənubi Qafqazda yaratdığı yeni reallıqların geri dönüşü yoxdur və bu regionda istənilən beynəlxalq subyektin, eləcə də Fransanın maraqları yalnız Bakının iradəsi ilə təmin oluna bilər. Ona görə də Makronun Cənubi Qafqazda öz hökmranlığını qurmaq cəhdləri vaxt və məsrəf itkisindən başqa bir şey deyil".

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 12 fevral, № 31.- S.7.